**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

Haraya: **STFL, SANK, SAFN, SSOF, SROM, SBRS, SVŞN**
Məlumat üçün:
Göndərilmə nömrəsi: s/32-5684/32/17 Tarix: 02.03.17.
Sənəd necə göndərilir: **Elektron poçt** Əlavə olunur: **3 vərəq**
Səhifələrin sayı: **1**
Məhdudluğu qrifi: **Adi**
Təciliyi: **Adi**
Vacibliyi: **Adi**

Bununla, Trans-Adriatik Boru Kəməri (TAP) layihəsinin həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi məqsədilə Nazir müavini Mahmud Məmməd-Quliyev və TAP-ın icraçı direktoru Yan Bredşou arasında 22 fevral tarixində XİN-də keçirilmiş görüşün yazısını məlumat üçün göndəririk.

**İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsinin rəisi** **Anar Hüseynov**

MİƏİ-nin şöbə müdiri Orxan Zeynalov

İcraçı: Elşən Abduləzimov (2311)

**Xarici İşlər Nazirinin müavini Mahmud Məmməd-Quliyev
və Trans-Adriatik Boru Kəməri layihə şirkətinin (TAP AG) icraçı direktoru
Yan Bredşou ( Ian Bradshow ) arasında keçirilmiş görüşün yazısı**

**22 fevral 2017-ci il, Bakı**

Trans-Adriatik Boru Kəməri (TAP) layihəsinin həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi məqsədilə 22 fevral tarixində XİN-də TAP-ın icraçı direktoru Yan Bredşou və TAP-ın Kommersiya və xarici əlaqələr üzrə direktoru Ulrike Andres ilə görüş keçirilmişdir. Görüşün əvvəlində Y.Bredşou TAP-ın kommersiya və xarici əlaqələr üzrə sabiq direktoru Maykl Hofmanın əvəzinə Ulrike Andresin təyin edildiyini bildirərək, xanım Andresin bundan əvvəl "Transalp boru kəməri"nin baş icraçı direktoru, eləcə də "Shell" və "SHV holdinq" kimi nəhəng şirkətlərin rəhbər vəzifələrində işlədiyini qeyd etmişdir.

Daha sonra Y.Bredşou TAP-ın icrasının hazırkı vəziyyətinə dair aşağıdakı məqamları qeyd etmişdir:

- Layihənin **Albaniya ərazisindəki inşaat işləri plana uyun olaraq davam edir**. Layihə həm Albaniya hökuməti, həm də müxalifəti tərəfindən tam dəstəklənir. Bu ölkədə qarşıya çıxan yeganə çətinlik qaz kəmərinin keçdiyi ərazilərin yüksək dağlıq relyefə malik olması səbəbindən yaranan geoloji risklərdir.
- Layihənin **Yunanıstan hissəsində də vəziyyət müsbətdir**. Yunan hökumətinin layihəyə dəstəyi qeyd edilməlidir. Bu ölkədə qarşıya çıxan çətinliklər isə qazıntı-inşaat işləri zamanı aşkar olunan arxeoloji tapıntılar və 10 km ərazini əhatə edən kiçik bir bölgədə (Kavala əyalətində) bir qrup insanın layihəyə müxalifət etməsidir. Bu xüsusda TAP-a qarşı müxalif mövqeyin yumşaldılması məqsədilə TAP AG Kavalada sosial layihələr təşəbbüsü ilə çıxış edir.
- 878 km-lik TAP layihəsinin cəmi 8 km-nin **İtaliya** ərazisindən keçməsinə baxmayaraq, bu hissə hazırda layihənin ən mürəkkəb və problemli hissəsidir. (TAP) layihəsinin İtaliyadan keçən hissəsində tikinti işlərinin başlanması ilə bağlı İtaliyanın mərkəzi hakimiyyəti və boru kəmərinin çıxış nöqtəsinin yerləşdiyi Puliya regionunun yerli hakimiyyəti arasında fikir ayrılığı səbəbindən işlərdə ciddi ləngimələr mövcuddur. Belə ki, ətraf mühitlə bağlı ən yüksək standartların tətbiq olunacağı ilə bağlı zəmanətlərin verilməsinə baxmayaraq, Puliya regionun rəhbəri Mikele

Emiliano ətraf mühitə dəyən zərər, regionun dekarbonizasiyası və boru kəmərinin çıxış nöqtəsinin hazırkı San-Fokadan şimalda yerləşən Brindiziyə dəyişdirilməsi kimi müxtəlif texniki bəhanələrlə bu ərazidə işlərin gedişatına mane olmaqdadır. Brindizinin merinin layihəyə qarşı sərt mövqe tutması səbəbindən çıxış nöqtəsinin bu əraziyə köçürülməsi qeyri-mümkündür və ümumiyyətlə kəmərin çıxış nöqtəsinin dəyişdirilməsi texniki cəhətdən mürəkkəb məsələdir və hazırkı marşrut ən əlverişli yoldur. Hazırda yaranmış vəziyyətə əsasən M.Emilianonun simasında tək şəxs 40 milyard ABŞ dolları dəyərindəki nəhəng layihənin reallaşdırılmasını sual altında qoyur. Müşahidələr onu deməyə əsas ver ki, regionda fəaliyyət göstərən polad zavodu və elektrik stansiyalarının ətraf mühitə vurduqları zərər səbəbindən yaxın gələcəkdə bağlandıqları təqdirdə bunun bölgədə yaradacağı işsizlik problemi M.Emiliano üçün ciddi siyasi risk amilidir. Bu səbəbdən, M.Emiliano regionda fəaliyyət göstərən müəssisələrin təbii qaza transformasiyasına və ümumilikdə regionun dekarbonizasiyasına nail olmaq niyyətindədir. Bu niyyətini o, TAP-ın səhmdarları SNAM və SOCAR-dan təbii qazı demək olar ki kömür qiymətinə satın alaraq (təxminən 1-1,5 milyard $m^3$) təmin etmək istəyir, bu isə normal bazar şərtlərinə tam ziddir. Layihəyə süni maneələr yaratmaqla o özünə daha əlverişli şərtlər əldə edə biləcəyinə ümid edir. M.Emilianonun bu istəyi layihənin ümumi dəyəri miqyasında cüzi bir istək kimi görünsə də, bir müştəriyə endirim edilərsə digər bütün müştərilərin bənzər endirimlər istəyəcəyi istisna edilmir. Belə çıxır ki, M.Emiliano əslində çox şey istəyir və indiki halda biz bu adamın mövqeyi səbəbindən İtaliyada pat vəziyyəti ilə üzləşmişik.

Nazir müavini M.Məmməd-Quliyev verilmiş məlumatlara görə təşəkkür etmiş və aşağıdakıları bildirmişdir:

- Şahdəniz 2, Cənubi Qafqaz Boru Kəməri sisteminin genişləndirilməsi və TANAP layihələrində işlər uğurla davam edir. Təəssüf ki İtaliyada yaranmış vəziyyət layihənin vaxtında icrası baxımından çətinliklər yaradır. Digər tərəfdən, əvvəlki dövrdən fərqli olaraq İtaliyanın mərkəzi hökuməti və Puliya regionun rəhbərliyi arasında müəyyən dialoqun yaranması müsbət haldır. Layihənin normal gedişinə mane olan üçüncü qüvvələr də mövcuddur.
- Azərbaycan öz tərəfindən bu problemin qısa müddət ərzində həllinə töhfə vermək əzmindədir. Lakin bu problem ilk növbədə Aİ ilə əlaqəlidir və Aİ qurumlarının və üzv dövlətlərinin, Avropa Komissiyasının dəstəyi çox vacibdir. Bu yaxınlarda Azərbaycan Respublikası Prezidentinin

Brüsselə baş tutmuş səfəri zamanı keçirilmiş yüksək səviyyəli görüşlər zamanı Cənub Qaz Dəhlizinin (CQD) Aİ-nin enerji təhlükəsizliyində oynadığı rol bir daha vurğulanmışdır. Təəssüf ki Aİ institutları tərəfindən layihənin ləngimədən, vaxtında həyata keçirilməsi ilə bağlı hər hansı bir təşəbbüs müşahidə edilməməkdir. Halbuki artıq layihənin gedişatında bir neçə aylıq gecikmə var. Kəmərin İtaliyada çıxış nöqtəsi olan ərazidə yerləşən zeytun ağaclarının aprel ayına qədər köçürülməməsi halında təxminən 6 aylıq əlavə gecikmənin olacağı da nəzərə alınmalıdır.

- Digər tərəfdən Aİ-nin bəzi təzadlı addımları da müşahidə olunur. Belə ki, Aİ bir tərəfdən CQD-ni dəstəklədiyini bildirsə də, digər tərəfdən TAP əleyhinə təşəbbüslərə, o cümlədən müxtəlif QHT-lər vasitəsilə maliyyə yardımı ayırır.
- İtaliyadakı vəziyyətdən çıxış yolu tapmaq üçün TAP AG şirkətinin hər hansı konkret təklifi olduğu halda Azərbaycan tərəfi həmin təklifləri nəzərdən keçirə bilər. Hesab edirik ki, bu məsələdə bütün tərəflər, o cümlədən TAP konsorsiumunun üzvü olan səhmdar şirkətlər öz gücünü səfərbər etməli və birgə əlaqələndirilmiş addımlar atılmalıdır.

Görüş davamında Y.Bredşou ona verilmiş suallara cavab olaraq, İtaliyanın Puliya regionu ilə hər hansı irəliləyişə nail olmaq mümkün olmazsa, layihənin digər mümkün istiqamətləri ilə bağlı məlumat vermiş və aparılmış hərtərəfli araşdırmaların nəticəsinə əsasən, hazırkı marşrutun kommersiya baxımından ən sərfəli variant olduğunu demişdir. O həmçinin, İtaliyanın İqtisadi inkişaf naziri Karlo Kalendarın Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 23 fevral tarixində Bakıda keçiriləcək 3-cü iclasında iştirakının vacib olduğunu qeyd edərək, İtaliyalı nazirin həmin iclasa müsbət xəbərlə gələcəyinə ümid etdiyini bildirmişdir.

Görüşdə həmçinin MİƏİ-nin Avropa İttifaqı ilə əməkdaşlıq şöbəsinin müdiri Orxan Zeynalov və həmin şöbənin ikinci katibi Elşən Abdulezimov, TAP layihə şirkətinin hökumətlə əlaqələr və siyasət üzrə müşaviri İlham Əkbərov iştirak etmişlər.